TƏDQİQAT

# "KİTABİ-DƏDƏ QORQUD"DA OĞUZ QADIN TİPİ: BANIÇİÇƏK



Bəhlul ABDULLA

*KDQ-də Dirsə xanın xanımı Xan qızından və xanlar xanı xan Bayındırın qızı, Salur Qazanın xanımı Burla xatundan sonra daha çox tanınan, üçüncü boyun iki əsas qəhrəmanından biri olan Baybican bəyin qızı Banıçiçəkdir. O, KDQ-də yeganə qızdır ki, qeyri-adi doğuluşludur. Bu, belə olub. Baybörə bəyin oğul istəyi xatirinə Oğuz bəyləri göyə üz tutaraq, əl qaldırıb dua edirlər. İşi belə görən Baybican bəy də onlara üz tutub deyir: "Bəylər, mənim dəxi haqqıma bir dua eylən. Allah Taala mana da bir qız verə". Bəylər onun üçün də dua edirlər. Və elə buradaca Baybican bəy bunu da bəyan edir: "Bəylər, Allah Taala mana da bir qız verəcək olarsa, siz tanıq olun, mənim qızım Baybörə bəy oğluna beşikkərtmə yavuqlu olsun".*

Bu deyimdəki bir məsələni aydınlaşdırmaq istəyirik. Bilirik ki, daha çox əski çağlarda, bəzi hallarda elə indinin özündə də eyni vaxtda, sözsüz ki, ayrı-ayrılıqda, doğulmuş oğlanla qızı gələcəkdə evləndirmək ənənəsi məişətdə olub. Bu ənənə, bir qayda olaraq, "göbəkkəsmə", "beşikkərtmə" ayininin icrasında öz təsdiqini tapır. "Göbəkkəsmə"də, adətən, yeni doğulmuş uşaqların kəsilmiş göbəklərini bir-birinə düyünləməklə, "beşikkərtmə"də isə beşiyin tutacağında, yaxud yan hissələrinin üst ağaclarında kəsici alətlərlə kəsiklər açmaqla ayin icra olunur.

Deməli, Baybican da "beşikkərtmə" deyəndə, bu yönü nəzərə çatdırmışdır.

Zamanın vaxt-vədəsində alqışı-alqış, qarğışı-qarğış olan bəylərin duası burada da müstəcab olur. Tanrının inayəti ilə Baybörənin oğlu, Baybicanın isə qızı olur. Oğlanın ilk adı Bozoğlan (Oğuzlarda oğlan sayılan, tanınan adını insiasiya mərhələsinə çatdıqda alır. Bozoğlan da on altı yaşında bəzirganların mallarını əllərindən almış Evnik qalasının kafirlərini döyüşdə məğlub edir. Bəzirganların mallarını geri alır. Bu üzdən də Qorqud Ata ona Bamsı Beyrək adı verir), qızın adı isə Banıçiçək olur.

Düzdür, boyda Bamsı Beyrəyin uşaqlığı, böyüməsi barədə ötəri də olsa, xəbər vardır. Burada deyilir: "Baybörənin oğlu (Bamsı Beyrək – B. A.) beş yaşına girdi, beş yaşından on yaşına girdi... On yaşından on beş yaşına girdi...Çaya baqsa çalımlu, çal qaraquş ərdəmlü, bir gözəl yaxşı yigit oldu". Banıçiçəyin uşaqlığı, necə böyüməsi sarıdan isə boyda bir söz deyilməyib. Amma boyu oxuduqca öyrənirik ki, bu qız qara saçlı, ala gözlü, ağ üzlü, güz alması kimi al yanaqlı, gümüşü ağ biləkli, gözəllər şahı olan bir qızdır. Bəli, bu belədir. Amma el-oba içində Banıçiçəyin daha çox hansı keyfiyyətlərlə tanınmasını Bamsı Beyrəklə Baybörənin söhbətindən öyrənirik.

Bamsı Beyrək atasına evlənmək istədiyini bildirdikdə, o, kimin qızını gözaltı etdiyini soruşur. Beyrək deyir: "Baba, mana bir qız alı ver kim, mən yerimdən durmadan ol durgəc gərək! Mən qarağuc atıma binmədin ol binmax gərək! Mən qırıma varmadın ol mana baş gətirmək gərək! Bunun kibi qız alı, baba mana"

Babası Baybörə xan aydır: "Oğul, sən qız diləməzsən, kəndünə bir hampa (*Vatikan nüsxəsində "həmta"* – **B. A.**) istəmişsən. Oğul, məgər sən istədigün qız Baybican bəg qızı Banıçiçək ola?!-dedi. Beyrək aydır: "Bəli, pəs, əvət, ağ saqallu əziz baba, mənim dəxi istədügüm oldur".

Baybörə bəyin dediklərindən belə çıxır ki, Banıçiçəyin Bamsı Beyrək sadalayan keyfiyyətlərini Oğuzda hamı bilir. Amma bu qızın nə vaxt, harada, kimlərə qarşı belə hünərlər göstərməsi barədə xəbərə tuş olmuruq. Həm də hesaba alaq ki, Banıçiçək KDQ-də yalnız elə sözü gedən boyda iştirak edir. Digər boylarda bir kərə də olsun onu görmürük. Bununla belə, Banıçiçəyin Bamsı Beyrəklə qarşılaşarkən göstərdiyi şücaətlər deyilənlər üçün sübut

meyarı məqamındadır. Deyək ki, Banıçiçəyin Bamsı Beyrəklə qarşılaşması səhnəsinə gedən yol da məsafəlidir.

Arxada da dediyimiz kimi, Baybörənin Bozoğlan adlı oğlu bəzirganların mallarını aparan kafirlərlə döyüşdə üstünlük qazanır. Bu şərəfə o, Qorqud Atadan tanınma – Bamsı Beyrək adı alır və ova yollanır. O, ovda bir keyiki qova-qova gəlib göy çayırın üstündə tikilmiş qırmızı otağın yanına yetişir. Otağın məhz elə qırmızı rəngli olmasından həyalanan, boyda olduğu kimi desək, ədəblənən Bamsı Beyrək geri-geri çəkilir. Nə üçün? Ona görə ki, Oğuz adətinə görə, ərgənlik yaşına çatmış bəy qızları üçün tikilən otaq, qurulan çadır tanınma əlaməti kimi, qırmızı rəngli olurmuş. Bamsı Beyrək də bunu bildiyi üçün, amma qızın kimliyini tanımadığı üçün etiket qaydasına əməl edərək, qırmızı rəngli otağa yaxınlaşmaqdan çəkinir.

Bamsı Beyrək kəmənd atıb keyiki – ceyranı tutur. Bütün bunları pəncərədən görən Banıçiçək yanındakılardan birini – Qısırca Yengəni hələlik ovçu bildiyi Bamsı Beyrəkdən pay istəməyə yollayır. Və yalnız indi, Qısırca Yengə ilə söhbətindən Bamsı Beyrək qırmızı rəngli otağın Banıçiçəyin olduğunu bilir və ədəblə geri dönür.

Bizə bəllidir ki, Oğuzda dörd igid niqabla gəzirmiş: Qara Çəkur, Qara Çəkur oğlu Qırqqunuq, Qanturalı, Bamsı Beyrək. Banıçiçək də, Qısırca Yengənin dediyindən, ovçunun niqablı olduğunu bilincə onu çağırtdırıb danışmaq istəyir. Öyrənmək istəyir ki, bəlkə bu Bamsı Beyrəkdir. Çünki atası Baybican bəy bir vaxt ona "səni üzü niqablı Beyrəyə vermişəm" demişdi.

Bamsı Beyrəyin çağırılması və Banıçiçəyin onunla qarşılaşması səhnəsində Oğuzlardan başlayıb gələn və az-çox bu gün də məmləkətimizin bəzi məkanlarında qorunmaqda olan bir etiket qaydası ilə də tanış olmaq imkanı tapırıq. Belə ki, ərgən qızlar tanımadıqları cavan oğlanlardan, nişanlılar, gəlinlər isə qayınata, qayınanadan yaşınmış, üzlərini onlara göstərməkdən çəkinmişlər. Hətta qız ər evinə gəlin gəldikdən sonra da müəyyən müddət nəinki üzünü, eləcə də boyunu belə evdəki böyüklərdən gizlətməyə səy etmişdir. Gəlinin üzə çıxması üşün ona dəyərli hədiyyələr verməklə xüsusi üzəçıxma, boygöstərmə mərasimi keçirilərmiş. Bu sonuncu etiket adəti elə indinin özündə də davam etməkdədir.

Boyda deyilir ki, "Beyrək gəldi, Banıçiçək yaşmaqlandı". Yəni üzünü örtdü. Sorğu-sualdan Banıçiçək ovçunun doğrudan-doğruya Bamsı Beyrək olduğunu öyrənsə də, hələlik özünü tanıtmaq istəmir. Bamsı Beyrəyin nə üçün gəlməsinin səbəbini bilmək istəyir.

Burada bir uyğunsuzluqla uzlaşırıq. Bayaqdan deyirik ki, Bamsı Beyrəyin ovu qaçıb buraya gəldiyi üçün o da ovunu qova-qova bura yetişmişdi və Qısırca Yengənin xəbərindən qırmızı otağın Banıçiçəyə məxsusluğunu bilmişdi. İndi isə deyir ki, "Baybican bəğin bir qızı varmış, anı görməgə gəldim!". Olsun ki, burada bir fəndgirlik də var. O, artıq bilir ki, gəldiyi yerdə olan Banıçiçəkdir. Odur ki, guya ovlayacağı ceyranın arxasınca yox, elə Banıçiçəyi görməyə gəldiyini söyləməklə yerini şirin salmaq istəyir.

Bütün dünya, eləcə də Azərbaycan xalqının anonim ədəbiyyatı örnəklərində də qızlar özlərini onları sevən oğlanlara əlbəəl tanıtmırlar. Bunun üçün oğlanlar sınanılır, müxtəlif şərtləri yerinə yetirməli olurlar. Elə oğlanlar da çox vaxt bu yolu tuturlar və qızla oğlan aralarında yalnız özlərinə bəlli bəlgə – nişan da qoyurlar. Misal üçün, "Üç şahzadə" Azərbaycan nağılında təqdim olunan şah qızı onu istəyən oğlanın hünər və bacarığını, namus və qeyrətini, ağıl, mərifət və dərrakəsini sınayır. Oğlan tədbirlə, dünyagörmüş pirani-nuranilərin tövsiyə və məsləhəti ilə tilsimləri sındırır. Aslan və qaplana qalib gəlir. Sehrli qılıncı qırır. Od-alov içindən üstünə hücum çəkən əjdahanı boğub öldürür. Bundan sonra qız oğlanın ağıllı-kamallı olmasını da yoxlayır. Nağılda deyilir: "Sabahısı gün qız oğlana bir zümrüd göndərdi. Oğlan getdi bazara, bir dənə zəbərcəd alıb qoydu bunun yanına, qaytardı dala. O biri gün qız oğlana bir dənə almaz göndərdi. Oğlan almazı da bir daş üstdən qoyub əzdi, bir dəsmala bağlayıb qaytardı dala. Üçüncü gün qız oğlana bir dənə brilyant göndərdi. Oğlan gedib bazara, ondan da qiymətli bir brilyant aldı, iki dənə də yaqut, hamısını bir yerdə göndərdi qıza".

Bu tapmaca növlü sual-cavabın mənası belədir: qız ata-anası üçün özünü zümrüd kimi qiymətli, əziz bilirsə, oğlan cavab verir ki, elə mən də atam-anam üçün əzizəm, qiymətliyəm. Qız özünün almaz kimi bərk, arzularının saysız olduğunu bildirdikdə, oğlan almazı əzməklə deyir ki, əgər sənin istək və tələblərin həddini aşsa, onları beləcə əzərəm. Nəhayət, qız brilyant kimi gözəl olduğunu bildirir. Oğlan qızın göndərdiyi brilyantdan da qiymətlisini alır, yanına iki yaqut da qoyub geri qaytarır. Bu o deməkdir ki, mən də gözələm, amma bizim yaquta oxşar iki oğlumuz da dünyaya gəlsə, gör onda nə qiyamət olar.

Sözsüz, bu sıradan olan örnəklərin sayını artırmaq çətin deyil. Məsələ belədir ki, Banıçiçək də Beyrəyi taniyanda özünü o dəqiqə nişan vermir. Onu sınaqdan çıxarmaq istəyir. Odur ki, Bamsı Beyrək Baybican bəyin qızını görmək üçün gəldiyini söyləyəndə Banıçiçək deyir: "Ol öylə adam degildir kim, sana görünə! ...Amma mən Banıçiçəgin dadısıyam *(dayəsiyəm* – **B. A.**). Gəl indi sənünlə ava çıqalım. Əgər sənin atun mənim atımı keçərsə, onun atını dəxi keçərsən. Həm sənünlə ox atalım. Məni keçərsən, anı dəxi keçərsən. Və həm səninlə gürəşəlim. Məni basarsan, anı dəxi basarsan".

Atçapma və oxatmada Bamsı Beyrək üstünlük qazanır. Bu, Banıçiçəyi təəccübləndirir. Çünki onun necə bir hünər sahibi olmasını biz burada elə qızın öz dilindən eşidirik: "Mərə yigit, mənim atımı kimsə keçdigi yoq. Oxımı kimsə yardığı yoq. İndi gəl sənünlə gürəş tutalım".

Güləşmədə Bamsı Beyrək duyur ki, Banıçiçəyin belini yerə vura bilməyəcək. Odur ki, namərdlik etmək yolunu tutur. O, qızın zərif yerindən (döşündən) yapışmaqla qızı yıxır. Yalnız bundan sonra Banıçiçək kimliyini tanıdır. Bamsı da onu üç öpüb bir dişləyir və üzüyünü onun barmağına taxmaqla aralarında özlərinə bəlli bəlgə qoyurlar.

Qorqud Atanın elçiliyi ilə Banıçiçəyin Bamsı Beyrək üçün istəməsi uğurla nəticələnir. Biz bu mərhələnin əlverişli nəticəsindən sonra yenə Oğuzda mövcud olan iki etiketlə tanış oluruq. Əvvəlcə boydakı epizodu oxuyaq: "Oğuz zamanında bir yigit ki, evlənsə, ox atardı. Ox nə yerdə düşsə, anda gərdək digərdi. Beyrək xan dəxi oxın atdı, dibinə gərdəgin dikdi. Adağlısından ərgənlik bir qırmızı qaftan gəldi. Beyrək geydi".

Deməli, buradan bizə birinci o bəlli oldu ki, evlənən kimsə mütləq ox atmalı və oxu düşdüyü yerdə – gələcəkdə yaşayış odası tikiləcək yerdə gərdək qurmalıdır. İkincisi, nişanlı üçün adaxlısından hədiyyə – daha çox qızın özü toxuduğu ərgənlik köynək gəlməlidir. Həm də bu köynək mütləq qırmızı rəngdə olmalıdır. Bu da səbəbsiz deyil. Arxada ərgənlik qızların tanınma əlaməti olaraq qırmızı rəngli otaqda oturduğunu bildirmişdik. Elə nişanlı oğlana da qırmızı rəngli köynəyin göndərilməsi eynən bu məqsədə xidmət edir. Yəni bir oğlanın nişanlı olması çevrəsindəkilərin arasında qırmızı rəngli köynək geyməsi ilə tanınır.

Bura qədər yazdıqlarımızdan biz Banıçiçəyi vüqarlı, tədbirli, at səyridən, ox atan, pəhləvanlar kimi güləşən bir qız olaraq tanıdıq. Süjetin sonrakı motivlərində isə bu deyilənlərdən heç bir əsər-əlamət görmürük. Banıçiçək, sanki həmin Banıçiçək deyil. Artıq o, ah-nalə içində üzülən ixtiyarsız bir qıza çevrilir. Fikrimizin təsdiqi üçün boya müraciət edək.

Banıçiçək Bamsı Beyrəyə nişanlanır. Bamsı Beyrək isə otuz doqquz igidi ilə işrət məclisi qurur. Yeyib - içib yatırlar. Casus Bayburt hasarının bəyinə xəbər verir ki, "Nə oturarsan, sultanım, Baybican bəg ol sənə verəcəgi qızı Beyrəgə verdi".

Yeddi yuz kafir tökülüşüb gəlir. Bamsı Beyrəkgili yatdıqları yerdə tutub əsir aparırlar. Beyrəyin ata-anası səhər durub görürlər ki, "gərdək paralanmış, naib şəhid olmuş"dur.

Buradan açıq-aydın görünür ki, Beyrək və otuz doqquz yoldaşı kafir basqınına tuş olmuşdur. Əgər bunlar öldürülsəydi, cəsədləri ortada olardı.

Deməli, onlar əsir aparılıb. Kim aparıb, hara aparıb? Bilən yoxdur. Bu, inandırıcı görünmür. Axı kafirlərin Oğuzlar arasında casusları olduğu kimi, elə Oğuzların da kafirlər arasında adamları olur. Bir hadisə olanda, yaxud kafirlər Oğuzlara hücüm edəndə onlar əlbəəl bu xəbəri çatdırırlar. Misal üçün, doqquzuncu boyda Bəkil atdan yıxılıb ayağını sındıranda, kafirlər bunu fürsət bilib onun üstünə hücuma hazırlaşırlar. Əhvalatı Bəkilin kafirlər arasında olan adamı o saat Oğuza xəbər verir.

Bəs necə olur ki, Bamsı Beyrək otuz doqquz igidi ilə əsir gedir və nə az - nə çox, düz on altı il onlar Bayburt hasarında əsir qalırlar, heç kəs bundan xəbər tutmur. Daha bu qədər adam toz olub göyə sovrulmadı ki...

Əlbəttə, sözümüz bunda deyil. Sözümüz ondadır ki, Banıçiçək də Bamsı Beyrəyin yoxluğunu eşidincə, ağ donunu çıxarıb qara geyinir, güz alması kimi al yanağını dartıb yırtır, sözün gerçək anlamında, şivən qoparır: "Vay, al duvağım iyəsi! Vay, alnım başım umurı! Vay, şah yigidim, vay, şahbaz yigidim! Doyunca yüzinə baqmadığım, xanım yigit! Qanda getdin, bəni yalnız qoyub, canım yigit! Göz açuban gördigim (*Düz deyil. Banıçiçəyin göz açıban Beyrəyi gördüyü barədə bir kəlmə də yoxdur. Onların ilk görüşü Beyrəyin keyiki qovub Banıçiçəyin olduğu yerə gətirdiyi vaxt olub* – **B. A.**), könül ilə sevdigim, bir yasduqda baş qoduğım! (*Yenə düz deyil. Onlar hələ təzəcə nişanlanmışdılar.* Evlənməmişdilər ki, bir yastıqda baş da qoysunlar – **B. A.**) Yolunda öldügim! Qurban olduğım!..."

Yalançı oğlu Yalançuq da yalandan Bamsı Beyrəyin ölüm xəbərini gətirəndə, Banıçiçək elə bu şəkildə şivən qoparıb göz yaşı axıdır.

Onu Yalançı oğlu Yalançuqa ərə verirlər. O susur. Etiraz-filan eləmir. İndi otuz iki yaşa çatmış bu qızda on altı yaşında vurub-çatan, tutub-yıxan Banıçiçəkdən heç bir nişanə yoxdur. Düşünmək olar ki, Banıçiçək elə bu olanlarla razıdır. Bamsı Beyrək heç onun yadına da düşmür. Amma əslində belə deyil. Onun qəlbindən qara qanlar axmasını Bamsı Beyrəyin dustaqlıqdan xilas olub özünü Oğuza yetirməsi, Salur Qazanın icazəsi ilə Banıçiçək üçün düzənlənmiş toy mərasiminə getməsi və gəlin gedəcək qızın, yəni Banıçiçəyin oynamasını tələb etməsindən öyrənirik.

Bamsı Beyrəyi bacıları, Oğuz bəyləri kimi toydakı xanımlar da tanımır. Üz-gözünü basmış saçsaqqaldan, üst-başının geyimindən onu dəli ozan bilirlər. Odur ki, o, "ərə varan qız qalqa oynaya mən qopuz çalam" deyəndə, Banıçiçəyin əvəzinə irəlidə barələrində müfəssəl söz açacağımız Qısırca Yengə ilə Boğazca Fatmanı oynadırlar. Bamsı Beyrək onların eyiblərini açıb yerlərində otuzdurur və nəhayət Banıçiçək oynamağa məcbur olur.

Biz bilirik ki, toy Banıçiçəyindir. Amma o hələ də qızlar arasında məhz gəlin gedən qızın olmasını tanıdan qırmızı qaftanını geyməmişdir. O, bunu yalnız oynamağa qalxanda geyir. Əllərini də donunun içində gizlədir ki, Beyrək verən üzüyü görən olmasın. Bunu belə görən Bamsı Beyrək deyir ki, bəs xan qızı qar-çovğunda su gətirməyə gedərkən biləyindən on barmağını don vurduğu üçün eyiblidir.

Bu sözləri eşidən Banıçiçək acıqlanır və gümüş kimi ağ biləklərini açıb əllərini irəli uzatdıqda barmağındakı üzük görünür. Üzüyü görüb tanıyan Bamsı Beyrək soylayır:

*Beyrək gedəli Bam-bam dəpə başına*
*çıqdınmı, qız?!*
*Qarılatıb dört yanına baqdınmı, qız?!*

*Qarğu kibi qara saçın yoldınmı, qız?!*
*Qara gözdən (?-**B. A.**) acı yaş dökdünmi qız?!*
*Sən ərə varasan, altun yüzük mənimdir.*
*Ver mana, qız!*

Əvvəlcə deyək ki, soylamadakı "qara gözdən" deyimini sual altında saxlamağımız səbəbsiz deyil. Çünki boyda Banıçiçək həm də "ala gözlü" olaraq təqdim olunmuşdur. Bu, Beyrəyin, yoxsa dastançının səhvidir? Deyə bilmərik. Amma uyğunsuzluğun olduğunu deyə bilərik.

Bamsı Beyrəyin Banıçiçəkdən soruşmaları, sözsüz ki, ağır ittihamdır. Düşünürsən ki, o, qızdan öz altun üzüyünü istəməkdə də haqlıdır. Bir halda ki, başqasına ərə gedir, daha onun verdiyi üzüyü nə üçün barmağında gəzdirməlidir?

Amma Banıçiçəyin cavabını eşidəndə səhv düşündüyünü bilirsən. Bu cavabdan Banıçiçəyin on altı il nişanlı həsrəti ilə yanıb yaxıldığını, gecə-gündüz, gizli-gizli göz yaşı axıtdığını öyrənirsən. Banıçiçəyin dediyimiz cavabı budur:

*Beyrək gedəli Bam-bam dəpə başına çıqdığım*
*çoq.*
*Qarğu kibi qara saçum yolduğum çoq.*
*"Vardı gəlməz bəg yigidim, xan yigidim beyrək"*
*- deyü ağladığım çoq.*
*Sevişdiyim Bamsı Beyrək sən deyilsən,*
*Altun yüzük sənin degildir.*
*Altun yüzükdə çoq nişan vardır.*
*Altun yüzügi istərsən, nişanın söylə!*

Bamsı Beyrək altun üzüyün yuxarıda xatırlatdığımız və bizə də bəlli olan cavabını söyləyincə, Banıçiçək onu tanıyır. Cübbəsilə, çuxasıyla Beyrəyin ayağına düşür. Burada yenə də gözlərimiz önündə otuz iki yox, on altı yaşlı Banıçiçək canlanır. O, çeviklıklə sıçrayıb ata minir. Sevinc hissləriylə atı Bamsı Beyrəyin ata - anasını muştuluqlamağa çapır.

Muştuluqistəmə və muştuluqvermə KDQ-nin ümumi mətnində tez-tez görünən ənənə səciyyəli etiket tiplərindəndir. Biz ötən araşdırmalarımızda bu məsələdən az-çox söz açmış, istər KDQ-də, istərsə də ümumən folklorumuzda muştuluqistəmə və muştuluqvermənin səciyyəvi cizgilərini üzə çəkməyə səy etmişik. Bununla belə, söhbətin bilavasitə Banıçiçəyə aidliyini hesaba alıb, yenidən məhz onun muştuluq istəməsindən və Bamsı Beyrəyin atası Baybörənin muştuluq verməsindən bir-iki söz danışmaq istəyirik.

Bamsı Beyrəyin dustaq düşməsindən xəbər tutmayan Oğuz bəylərinə Yalançı oğlu Yalançuq özündə daşıdığı adlara uyğun olaraq yalan xəbər gətirir. Beyrəyin öldüyünü bildirməklə onun nişanlısı Banıçiçəklə evlənməkdən sarı toy tədarükündə bulunur. Amma bu zaman Bamsı Beyrək kafir qızının yardımı ilə dustaqlıqdan xilas olub elə – Oğuza qayıdır. Süjetdə məsələnin belə istiqamət alması Yalançuğun ovqatına soğan doğrasa da, çevrədəkilər üçün qəni sevinc aktına çevrilir. Toy ziyafətində olan qız-gəlinlər bu şad xəbəri başqalarına çatdırıb muştuluq almağa tələsirlər. Banıçiçək isə birbaşa qayınatası, qayınanasıgilə yollanır. Onun Beyrəyin qazamatdan qayıtmasını söyləyib muştuluq istəməsini və Beyrəyin valideynlərinin gəlinlərinə nələri muştuluq verməlrini bütövlükdə nəzərə çatdırmağı yönlü sayırıq:

Qız (*Banıçiçək* – **B. A.**) aydır:
*Ağrab-ağrab qara dağın yıxılmışdı,*
*yucaldı, axır!*
*Qanlu-qanlu suların sovğulmışdı,*
*çağladı, axır!*
*Qaba ağacın qurımışdı, yaşardı axır!*
*Şahbaz atın qarımışdı, qulun verdi, axır!*
*Qızıl dəvələrin qarımışdı, köşək verdi,*
*axır!*
*Ağ qoyunun qarımışdı, quzı verdi, axır!*
*On altı yıllıq həsrətin – oğulun Beyrək*
*gəldi, axır!*

Bu soylamadan sonra Banıçiçək müraciət etdiklərindən muştuluq istəyir. Bamsı Beyrəyin ata-anası da özlərini gəlinlərinin söz deyən dilinə, gəldiyi yola qurban – sadağa verməklə ona muştuluq boyun olurlar:

*Qarşu yatan qara dağlar sana yaylaq olsun!*
*Sovuq-sovuq sular sana içət olsun!*
*Qulum - xəlayığım sana qırnaq olsun!*
*Şahbaz atlarım sana binət olsun!*
*Qatar-qatar dəvələrim sana yüklət olsun!*
*Ağayılda ağca qoyunum sana şülən olsun!*
*Altun - aqçam sana xərclıq olsun!*
*Dünlügi altun ban evim sana kölgə olsun!*
*Qara başım qurban olsun sana, gəlincigim!*

Sual oluna bilər ki, Bamsı Beyrəyin salamat olması xəbərini Banıçiçək nə üçün simvollarla – yıxılmış qara dağın ucalması, donmuş suların çağlaması, qurumuş ağacların yaşıllaşması, qarımış şahbaz atların, dəvələrin, qısırlaşmış qoyunların qulun, köşək, quzu verməsi şəklində söyləyir? Bu sualda soruşulanların, demək olar ki, hamısı barədə "Kitabi-Dədə Qorqud"un poetikası" (1999), "Kitabi-Dədə Qorqud"da rəng simvolikası" (2004) və "Salur Qazan" (2005) adlı kitablarımızda qədərincə danışmışıq. Bu araşdırmalarda dağın da, suyun da, ağacın da hansı mifoloji məqamlarla bağlılığı, atın, dəvənin, qoyunun Oğuz məişətindəki mövqeyi və rolu haqqında dediklərimiz elə Banıçiçəyin muştuluq istədiklərinə də aidlik dərəcəsindədir. Odur ki, yenidən həmin olanları burada təkrarlamaq istəmirik. Maraqlananları adlarını yazdığımız kitablarımızı oxumağa çağırırıq.

Boyun sonunda mürəkkəb süjetə hopmuş hadisə və əhvalatlar işıqlı olaraq yekunlaşır. Banıçiçək istəklisinə qovuşur.